UOT 339.542

Novruz Əmir oğlu RƏHİMOV
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
E-mail: novruzrehimov@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.003.034

QİDA MƏHSULLARI İSTEHSALININ MODERNLƏŞDİRİLMƏSİ VƏ İQTİSADİ ŞAXƏLƏNDİRMƏ MƏSƏLƏLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - Qida məhsulları istehsalının modernləşdirilməsinin, iqtisadiyyatın şaxələndirilməsində yeri və rolunu müəyyən etməkdən, iqtisadiyyatın şaxələndirilməsi prosesinə qida məhsulları istehsalının modernləşdirilməsinin təsirini müəyyənləşdirməkdən ibarətdir. Məqalədə qida məhsulları istehsalının modernləşdirilməsi ilə bağlı qlobal çağırışlar, iqtisadiyyatın şaxələndirilməsi prosesində qida sənayesinin modernləşdirilməsinin səciyyəvi cəhətləri müəyyənləşdirilmişdir.

Tədqiqatın metodologiyası - analiz, sintez və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - Azərbaycanda qida məhsulları istehsalının modernləşdirilməsinin məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsinə təsiri, qiymət və keyfiyyət baxımından rəqabət üstünlükləri əsaslandırılmışdır.

Tədqiqatın nəticələri - Qida məhsullarının istehsalının modernləşdirilməsinin məhsulun keyfiyyətinin yüksəldilməsinə təsiri əsaslandırılmaqla, qida sənayesi sektoruna investisiya qoyuluşlarının həcminin artırılması əsas amil kimi səciyyələndirilmişdir. Qida istehsalının modernləşdirilməsi prosesi, iqtisadiyyatda neft sektorundan asılılığın aradan qaldırılmasına əlverişli şərait yaradacaqdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi - Tədqiqat zamanı qida məhsulları istehsalının modernləşdirilməsinə investisiya qoyuluşlarının, məhsul innovasiyalarının bu prosesə təsir imkanları araşdırılmış və bu sahədə mövcud olan problemlər aşkar edilmiş və eləcə də iqtisadiyyatın şaxələndirilməsində qida sənayesi istehsalı sahəsinin modernləşdirilməsinin imkan və perspektivləri müəyyənləşdirilmişdir.

Açar sözlər: qida sənayesi, qida məhsullarının istehsalı, qida məhsulları istehsalının modernləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, investisiya qoyuluşları.

Giriş

Ölkəmiz dövlət müstəqilliyini əldə etdikdən sonra beynəlxalq münasibətlər sisteminə inteqrasiya prosesi sürətlənmişdir. Doğrudur, bu sahədə kifayət qədər çoxsaylı problemlər də mövcud olmuşdur. Belə ki, dövlət müstəqilliyinin ilk üç ilində ölkəmizdə siyasi və hərbi proseslərin təsiri iqtisadiyyatın yenidən qurulmasına, islahatların aparılmasına və ölkəmizin beynəlxalq münasibətlər sisteminə inteqrasiyasının dərinləşdirilməsinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərmişdir. Həmin dövr üçün ölkə iqtisadiyyatının inkişafından bəhs nə dərəcədə düzgün olsa da, lakin bununla belə əsas iqtisadi problemlərdən biri kapital resurslarının çatışmazlığı və tədiyyə balansında mənfi saldonun mövcud olması, ölkəmizin dünya bazarına inteqrasiyasının nəzərəçarpacaq dərəcədə zəif olması ilə xarakterizə olunmuşdur. Həmin dövrdə dövlət başçısı mərhum Heydər Əliyevin ən böyük səylərindən biri müharibədə atəşkəsə nail olması və 1994-cü ildə xarici dövlətlərlə neft kontraktlarının bağlanması ilə yadda qalmışdır. Neft kontraktlarının imzalanmasından sonra ölkəmizə irihəcmli neft investisiyaları daxil olmuş, bunun nəticəsində inflyasiyanın müəyyən zaman kəsiyində dayandırılmasına nail olunmuş, daxili bazarda qiymətlərin kəskin artmasının və inflyasiyanın qarşısının alınması təmin edilmişdir. Hazırda Respublikamız dünyanın 180-dən

çox ölkəsi ilə iqtisadi əməkdaşlıq edir. Regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində 2004-cü ildə həyata keçirilən tədbirlər regionlarda yeni iş yerlərinin yaradılmasına əlverişli şərait yaratmışdır. Lakin bununla belə, iqtisadiyyatın neft sektorundan asılılığını aradan qaldırmaq mümkün olmamışdır. Azərbaycan iqtisadiyyatında neft və neftlə bağlı məhsulların istehsalı və ixracı sektoru, ölkə iqtisadiyyatının sahə və ərazi kəsimlərində də özünəməxsus yerə və rola malik olmuşdur. Bütün bunlar ölkəmizin beynəlxalq bazar konyunkturunda neftdən asılılığını daha da gücləndirməklə yanaşı, iqtisadi inkişafın daha çox Bakı şəhərində toplanmasına səbəb olmuşdur.

Neftdən asılılığın aradan qaldırılması, ilk növbədə qeyri-neft sektorunun inkişaf etdirilməsini tələb edir. Qeyri-neft sektoru kifayət qədər çoxşaxəli inkişaf xüsusiyyətlərinə malik olan sahələrin məcmusunu özündə əks etdirir. Tərkibində kənd təsərrüfatı və emal sənayesi mühüm rol oynayır. Problemə bu aspektdən yanaşdıqda hesab etmək olar ki, qida məhsullarının istehsalının artırılması, nail olunması və onun ixracyönümlülüyünün yüksəldilməsi və beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi olduqca vacibdir.

Qida məhsullarının qiymətləri ilə kənd təsərrüfatı xammalının qiymətləri arasındakı fərqləri də nəzərə alsaq, hesab etmək olar ki, qida sənayesi məhsullarının dünya bazarına çıxarılması, daha irihəcmli valyuta gəlirlərinin əldə edilməsinə əlverişli şərait yarada bilər. Bu isə həm iqtisadiyyatın, həm də ixracın şaxələndirilməsində əhəmiyyətli vasitə sayılır.

Qida məhsulları istehsalının modernləşdirilməsinin ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyəti. Qida məhsullarının istehsalı sektoru kənd təsərrüfatı xammalının emalı prosesindən başlayır. İstər kənd təsərrüfatı, istərsə də qida sənayesi, qeyri-neft sektorunun inkişafının mühüm tərkib hissəsi kimi səciyyələnir. Hazırda beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiya şəraitində, Azərbaycan üçün təhdid doğuran məqam ondan ibarətdir ki, qeyri-neft məhsullarının idxalı artır. Qeyri-neft məhsullarının idxal həcminin artması, eləcə də dünya bazarında həmin məhsulların qiymətlərinin yüksəlməsi ilə son nəticədə dövlət büdcəsindən irihəcmli valyutaların xaricə axınına gətirib çıxarır.

Qeyri-neft məhsullarının ixrac həcminin artırılması həmin məhsulların keyfiyyətinin yüksəldilməsindən və maya dəyərinin aşağı salınmasından asılıdır. Bu isə qida sənayesinin modernləşdirilməsi ilə mümkündür. [6, s. 27].

Müəllifin fikirlərində əsas mühüm məqam həm milli iqtisadiyyatın, həm də gəlirlilik sektorunun modernləşdirilməsi ilə bağlıdır. Milli iqtisadiyyatın modernləşdirilməsinin strateji əhəmiyyəti onunla bağlıdır ki, milli iqtisadiyyat mütərəqqi və müasir texnologiyalarla silahlandırılır və bütün bunlar isə əmək məhsuldarlığının yüksəldilməsinə, istehsal edilən məhsulun keyfiyyətinin yüksəldilməsinə, məhsul vahidinin maya dəyərinin aşağı salınmasına imkan verir. Qeyri-neft sektorunun modernləşdirilməsinə gəldikdə isə, iqtisadiyyatın digər sahələri ilə yanaşı, qeyri-neft sektoru daha çox modernləşmə prosesinə ehtiyaclıdır. Neft sektorundan fərqi olaraq, qeyri-neft sektoru müasir dünya enerji resursları bazarında o qədər də cəlbedici görünmür. Doğrudur, qeyri-neft sektorunun mühüm tərkib hissəsi olan ərzaq və yeyinti məhsullarının istehsalına gündəlik tələbat mövcuddur. Lakin həmin tələbatın qarşılanmasında transmilli şirkətlər əhəmiyyətli rol oynayır. Bütün bunlar isə ona gətirib çıxarır ki, inkişaf etməkdə olan ölkələrdə, xüsusilə neft sektorundan asılı olan ölkələrdə qeyri-neft sektorunun inkişafı modernləşməyə daha çox ehtiyaclıdır. Məhz qeyri-neft sektorunun modernləşdirilməsi hesabına yüksək keyfiyyətli kənd təsərrüfatı və yeyinti məhsullarının istehsalına nail olmaq mümkün ola bilər.

Qida istehsalının modernləşdirilməsinin strateji əhəmiyyəti, ilk növbədə ölkənin iqtisadi təhlükəsizliyi və o cümlədən ərzaq təhlükəsizliyi ilə bağlıdır. Əməkdar elm xadimi, i.e.d. professor B.X.Ataşov hesab edir ki, ölkənin ərzaq təhlükəsizliyinin davamlı xarakter daşıması üçün əsas növ qida məhsullarının ümumi istehlak həcmində yerli istehsalın xüsusi çəkisinin 80%-i olması lazımdır. Ölkənin ərzaq təhlükəsizliyi o halda etibarlı hesab edilir ki, ölkə ərazisində qida məhsullarının idxalının dayandırıldığı halda bu proses ərzaq böhranı yaratmasın. Digər tərəfdən, yerli kənd təsərrüfatının həm də əmtəə istehsalçıları tərəfindən istehsal edilən və satılan məhsulların

ümumi həcmindən 90%-dən aşağı olmaması, şəkər tozu üçün bu göstəricinin 60%-dən, bitki yağı üzrə 70%-dən, süd, ət, balıq məhsulları üzrə 80%-dən az olmaması başlıca kriteriya sayılır[2, s. 24].

Qida istehsalının modernləşdirilməsinin strateji əhəmiyyətini qeyd edərkən, ilk növbədə nəzərə almaq lazımdır ki, bu proses modernləşmə prosesinin mahiyyətindən irəli gəlir.

Klassik iqtisadi nəzəriyyə aspektindən yanaşdıqda hesab etmək olar ki, modernləşmə prosesi ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçidin sosial, iqtisadi, texniki və texnoloji baxımdan məcmusunu özündə əks etdirən prosesdir. Modernləşmə üçün səciyyəvi cəhətlərə aşağıdakıları şamil etmək olar:

- modernləşmənin radikal xarakter daşıması. Başqa sözlə desək, cəmiyyətin həyatında radikal dəyişikliklərlə səciyyələnməsi;
- modernləşmənin mürəkkəb səciyyəyə malik olması. Bu, ilk növbədə insanların davranışları ilə də sıx bağlıdır;
- modernləşmənin sistemli xarakter daşıması. Bu, iqtisadiyyatın müxtəlif sahələrində baş verən dəyişikliklərin bir-biri ilə qarşılıqlı əlaqəyə malik olması ilə sıx bağlıdır;
- qloballaşmanın qlobal xarakter daşıması. Bu, dünyanın bütün ölkələrində qloballaşma prosesinin zəruriliyi ilə səciyyələnir;
- qloballaşmanın uzunmüddətli səciyyə daşıması. Bu, ilk növbədə onunla bağlıdır ki, qloballaşma həm zaman, həm də texnoloji baxımından uzunmüddətli səciyyəyə malikdir[7, s. 13].

Müəlliflərin qeyd etdiyi fikirlər, arqumentlərlə razılaşmaqla yanaşı, hesab etmək olar ki, modernləşmənin strateji əhəmiyyət daşıması daha çox onun mütərəqqi ideyalarla zəngin olması ilə səciyyəvidir. Çünki mütərəqqi texnologiyalardan istifadə edilməsi həm yeni məhsulların yaradılmasını özündə əks etdirir, həm də əhalinin tələbatının daha çevik şəkildə, çevik və davamlı olaraq qarşılanmasını nəzərdə tutur. Proseslərə bu nöqteyi-nəzərdən yanaşdıqda, qida məhsullarının istehsalının modernləşdirilməsinin strateji əhəmiyyəti həm də onunla bağlıdır ki, bu proses özünəməxsus mütərəqqi prosesləri nəzərdə tutur və insanların rifah halının yaxşılaşdırılmasına yönəlir və ehtiyaclarının səmərəli şəkildə qarşılanmasını ödəmiş olur.

Qida məhsulları istehsalının modernləşdirilməsinin strateji əhəmiyyəti, eyni zamanda qida istehsalçılarının səmərəli təsərrüfat fəaliyyəti həyata keçirməsi ilə bağlıdır.

Əməkdar kənd təsərrüfatı işçisi, prof. İ.H. İbrahimov qeyd edir ki,istehsalın iqtisadi səmərəliliyi o halda yüksələ bilər ki, əmək məhsuldarlığının artırılmasına nail olunsun, xərclərə qənaət mexanizmini özündə əks etdirən mütərəqqi texnologiyalar tətbiq edilsin.İqtisadi səmərəlilik rentabellik səviyyəsi ilə ölçülür. Rentabellik səviyyəsi məhsul istehsalından və göstərilən xidmətlərdən əldə edilən mənffəətin maya dəyərinə nisbətidir. Odur ki, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün istehsal xərcləri azaldılmalı, mənfəətin məbləği artırılmalıdır. [4, s, 535]. Müəllifin fikirlərini davam etdirmək olar ki, qida məhsulları istehsalının iqtisadi səmərəliliyinə bir sıra amillər təsir göstərir ki, bu ilk növbədə onun inteqrasiya olunduğu sahə ilə bağlıdır. Daha doğrusu, kənd təsərrüfatı məhsullarının xammalını əldə edərkən onun sərf etdiyi xərclər, kənd təsərrüfatı məhsulunun keyfiyyəti, həmin məhsulların qida sənayesi müəssisəsinə çatdırılması ilə bağlı logistika xərcləri, qida məhsulları istehsalçısının kənd təsərrüfatı xammalı istehsalçısına yaxınlığı və digər bu kimi amillər nəzərə alınmalıdır. Qida istehsalının iqtisadi səmərəliliyini səciyyələndirən ən mühüm amil, ilk növbədə mütərəqqi texnologiyalardan istifadə etməklə əmək məhsuldarlığının yüksəldilməsinə nail olunması və eləcə də məhsulun maya dəyərinin aşağı salınmasına yönəldilmiş fəaliyyətdir ki, bu da son nəticədə bütün hallarda məhsulun rəqabətə davamlılığının yüksəldilməsini səciyyələndirir.

Qloballaşma şəraitində qida məhsulları istehsalının modernləşdirilməsinin strateji əhəmiyyətini şərtləndirən amillərdən biri də modernləşmə nəticəsində əldə edilən rəqabət qabiliyyətli məhsullardır. Rəqabət qabiliyyətli məhsul istehsalı, son nəticədə sürətli satış imkanlarına malik olur, yüksək keyfiyyətə və qiymət əlçatanlığına malikdir. Bu baxımdan, hesab etmək olar ki, qida məhsullarının istehsalı sektoru sənayenin ən mühüm sahələrindən biridir və sahənin rəqabət qabiliyyətinin

yüksəldilməsi, nəticə etibarilə sahədə iqtisadi səmərəliliyin artırılmasına, eləcə də sahənin inkişaf potensialının səmərəli istifadəsinə əlverişli şərait yarada bilər. İ.e.d., A.F.Abbasovun fikrincə, sahənin rəqabət qabiliyyətinin təmin edilməsi, milli iqtisadiyyatın ayrı-ayrı sahələrinin azad rəqabətə davam gətirmə imkanları ilə səciyyələnir. Sahənin rəqabət qabiliyyəti hər bir ölkənin iqtisadi inkişaf səviyyəsindən və iqtisadi siyasətindən bilavasitə asılıdır. Sahə iqtisadiyyatının strukturunda rəqabətə davamlı sahələrin mövcud olması ölkənin dünya təsərrüfatçılıq sistemində yerinin və rolunun artırılmasını şərtləndirən mühüm amillərdən biri kimi çıxış edir. Müasir şəraitdə, ayrı-ayrı sahənin rəqabət qabiliyyəti məhsul istehsalı və satış üçün zəruri texniki, iqtisadi və təşkilati şəraitin yaradılmasından asılıdır. Sahənin rəqabət qabiliyyəti istehlakçı təbəqələrin (aşağı, orta və yüksək istehlak qabiliyyətinə malik olan əhali kateqoriyalarının) gündəlik ehtiyaclarının ödənilməsi üçün sahədə istehsal olunan məhsulun keyfiyyəti və qiymətinin yetərli olması ilə dəyərləndirilir [1, s. 378].

Qloballaşma şəraitində qida məhsulları istehsalının modelləşdirilməsinin ən mühüm strateji əhəmiyyətlərindən biri də xarici ticarətdə müsbət saldonun əldə edilməsinə, yəni tədiyyə balansının yaxşılaşdırılmasına göstərilən töhfə ilə bağlıdır.

Qida məhsulları istehsalının modernləşdirilməsi, aqrar sahənin modernləşdirilməsi ilə sıx bağlıdır. Aqrar sahədə rəqabət qabiliyyətli xammal istehsalına nail olduqca, qida istehsalında modernləşmənin imkanları da genişlənə bilər. İ.e.d. V.Ə.Qasımlının fikrincə, modernləşmə ölkənin xarici ticarət şərtlərini ölkənin iqtisadi təhlükəsizliyi baxımından yaxşılaşdırır. Bu baxımdan aqraq sahədə keyfiyyət dəyişikliklərinin məcmusu olaraq modernləşmə prosesi rəqabət qabiliyyəti yüksək olan kənd təsərrüfatı və qida məhsullarının istehsalı deməkdir. [5, s. 116]. Problemə müəllif yanaşması ilə razılaşmaq mümkündür. Lakin onu da əlavə etmək olar ki, qida sənayesi məhsullarının istehsal prosesinin modernləşdirilməsi həm də ixracın strukturunun təkmilləşdirilməsi deməkdir. Doğrudur, bu proses son nəticədə tədiyyə balansında müsbət dəyişikliklərin baş verməsinə səbəb olur və ixracın modernləşdirilməsinə də əhəmiyyətli təsir göstərir. Qida sənayesi istehsalını modernləşdirməklə ixracın şaxələndirilməsini təmin etmək mümkün olur. İxracın strukturunda rəqabət qabiliyyətli qida məhsullarının ixracını artırmaq mümkün ola bilər.

Qida məhsulları istehsalının modernləşdirilməsi iqtisadi şaxələndirmənin mühüm tərkib hissəsi kimi. Qida məhsulları istehsalının modernləşdirilməsi prosesi kifayət qədər mürəkkəb və çoxşaxəli bir prosesdir. Qida məhsullarının istehsalını modernləşdirmək üçün ən başlıca cəhət qida sənayesi sektoruna investisiyaların qoyuluşunun həyata keçirilməsidir. Doğrudur, Azərbaycan reallıqlarından çıxış etsək, bir sıra hallarda yerli təsərrüfat subyektlərinin, yəni mülkiyyət formasından asılı olmayaraq emal-sənaye müəssisələrinin məhsul istehsalının daxili maliyyə resursları hesabına investisiyalaşdırılması prosesi kifayət qədər mürəkkəb bir prosesi səciyyələndirir. Bu, onunla bağlıdır ki, təsərrüfat subyektlərinin daxili maliyyə imkanları iri həcmli investisiyalaşma proseslərini həyata keçirməyə imkan vermir. Şərqi Avropa ölkələrinin təcrübəsi göstərir ki, xüsusilə qida sənayesi istehsalının modernləşdirilməsi zamanı daha çox dövlət–özəl bölmə əməkdaşlığından faydalanılır və bir sıra hallarda isə xarici investisiyaların cəlb edilməsi ilə bağlı iqtisadiyyatda biznes mühiti təkmilləşdirilir və şəffaflaşdırılır. Məhz qida istehsalının modelləşdirilməsi, nəticə etibarilə rəqabət qabiliyyətli məhsul istehsalını həyata keçirməyə imkan verir ki, bu da iqtisadiyyatı bütün hallarda kompleks şəkildə şaxələndirməyə imkan verir.

Şaxələndirmə prosesinin mahiyyətini səciyyələndirərkən, ilk növbədə şaxələndirmədən əvvəlki iqtisadiyyatın strukturunu xarakterizə etmək daha doğru olardı. Şaxələndirmədən əvvəlki iqtisadiyyatda iqtisadiyyat yalnız bir və ya yalnız iki məhsulun istehsalı və ya ixracı üzərində qurulur. Beləliklə, bazar qanunauyğunluqlarında baş verən hər hansı dəyişikliklər, o cümlədən dünya bazar qanunauyğunluqlarındakı tərəddüdlər nəticə etibarilə qiymətlərin səviyyəsinin tərəddüdlərinə gətirib çıxarır. Bu tərəddüdlər isə dövlət büdcəsinə ixrac daxilolmalarının məhdudlaşmasını şərtləndirir. Azərbaycan reallıqlarından paralel gətirsək, belə qənaətə gəlmək olar ki, neftin tükəndiyi və ya neftin qiymətinin aşağı düşdüyü şəraitdə ixracın həcmində kəskin enmələr müşahidə edilə bilər. Bu da dövlət büdcəsinə valyuta daxilolmalarının həcminin azalmasına, milli valyutanın

kursunun aşağı düşməsinə səbəb ola bilər.

İqtisadiyyatın şaxələndirilməsi kifayət qədər mürəkkəb xarakter daşısa da, onun özünəməxsus tərkib elementləri mövcuddur. Belə ki, bu ilk növbədə istehsalın şaxələndirilməsini, bazarın şaxələndirilməsini və ixracın şaxələndirilməsini daha çox özündə əks etdirir.

M. V. Safronçuk qeyd edir ki, “*şaxələndirmə məhsulların çeşidini artırmaq və müvafiq olaraq bazarda iştirakı genişləndirmək üçün kifayət qədər böyük bir fürsətdir. Əlbəttə ki, bu zaman şirkətin sabitliyi və maliyyə dayanıqlığı da artır. Eyni zamanda, şaxələndirmənin genişlənməsi ilə əlaqədar bazara təmərküzləşmə yüksəlir. Beləliklə, istehsalın şaxələndirilməsi, bazarda daha çox pay əldə edilməsinə gətirib çıxarır. Buna görə də, hər hansı bir müəssisə şaxələndirmə prosesini həyata keçirməklə bazarda müəssisənin daha çox pay əldə etməsinə gətirib çıxarır”* [8, s. 74].

Qida məhsulları istehsalının modernləşdirilməsi prosesinin iqtisadiyyatın şaxələndirilməsində rolunu səciyyələndirərkən, belə bir məqamı da unutmaq olmaz ki, qida məhsullarının istehsalı əksər hallarda kənd yerlərində, o cümlədən xammal istehsal sahələrinə, istehsal sahələrinə yaxın ərazilərdə yerləşdirilir. Bu baxımdan qida istehsalının modernləşdirilməsi prosesi həm kənd təsərrüfatının modernləşdirilməsinə imkan verir, eyni zamanda aqrar sahənin və eləcə də kənd təsərrüfatının da şaxələndirilməsinə və bütövlükdə iqtisadiyyatın şaxələndirilməsinə əlverişli şərait yaradır.

Şaxələndirmə dünyanın əksər ölkələrində, xüsusilə aqrar sahənin inkişafı üçün daha önəmli hesab edilir. Aqrar sahədə şaxələndirmə prosesi kənd təsərrüfatının və emal sənayesinin inkişaf etdirilməsini, emal sənayesində qida məhsulları sektorunun modernləşdirilməsi nəticəsində əldə edilən nəticələrin daha səmərəli xarakter daşımasını nəzərdə tutur.

Bir sıra iqtisadçılar hesab edir ki, şaxələndirmə aqrar-sənaye kompleksinin bütün tərkib hissəsini, o cümlədən kənd təsərrüfatı və emal sənayesinin rəqabət qabiliyyətinin yüksəldilməsinə və məhsul istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsinə istiqamətlənmiş tədbirləri özündə əks etdirir. Şaxələndirmə prosesi nəticəsində geniş təkrar istehsalın mənbələrinin yenidən bölüşdürülməsi prosesi baş verir. Şaxələndirmə geniş təkrar istehsal prosesində maliyyələşmə mənbələrinin yenidən qurulmasının mühüm vasitəsi kimi çıxış edir[9, s. 6]. Başqa bir mənbə isə hesab edir ki, şaxələndirmə iqtisadiyyatın real sektorunun yenidən qurulmasının mümkün bir istiqaməti olub, regionların davamlı inkişafının təmin edilməsinə yönəlir[10, s. 5]. Regionların şaxələndirilməsi isə regionlarda çoxfunksiyalı mexanizmlər kompleksinin yaranmasını özündə əks etdirir və real səmərəliliyin yüksəldilməsinə təminat verir[11, s. 6].

Beləliklə, yuxarıda qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, qida məhsullarının istehsalının modernləşdirilməsi, nəticə etibarilə yeni keyfiyyətli məhsul istehsalının həyata keçirilməsi deməkdir. Bu proses məhsul istehsalının artırılmasına və çeşidinin genişləndirilməsinə yönəldilməklə yanaşı, əmək məhsuldarlığının artırılmasına, məhsulun keyfiyyətinin yüksəldilməsinə və məhsul vahidinin maya dəyərinin aşağı salınmasına istiqamətlənir. Beləliklə, qida məhsulları istehsalının modernləşdirilməsi nəticəsində məhsul vahidinə çəkilən xərclərin aşağı salınmasına nail olunur ki, bu da məhsul satışından əldə edilən pul gəlirlərinin və o cümlədən mənfəətin həcminin artırılmasına təminat verir.

Beləliklə, qida məhsulları istehsalını modernləşdirməklə iqtisadiyyatı şaxələndirmək mümkün olur. Bu şaxələndirmə isə məhsulun çeşidini artırır və eləcə də ixrac fəaliyyətinə öz müsbət təsirini göstərir. Beləliklə, həm qida məhsullarının istehsalının modernləşdirilməsi nəticəsində həm idxalın əvəzlənməsi baş verir, həm də ixracın strukturunda köklü keyfiyyət dəyişikliklərinə nail olunur.

Aparılan araşdırmalar göstərir ki, qida məhsullarının istehsalının modernləşdirilməsi iqtisadiyyatın şaxələndirilməsinə müsbət təsir göstərməklə yanaşı, eyni zamanda ərzaq təminatında idxalın xüsusi çəkisinin azalmasına da xidmət edə bilər. Təhlil göstərir ki, ölkəmizdə ərzaq məhsullarının istehsalının artırılmasına, emal sənayesi müəssisələrinin inkişaf etdirilməsinə dair regional dövlət proqramları həyata keçirilsə də, lakin hələ də ərzaq məhsullarının təminatı sahəsində idxaldan bu və ya digər şəkildə asılılıq qalmaqdadır. Bu baxımdan i.e.d. E.Ə.İbrahimov hesab edir ki əhalinin ərzaq təminatında xarici ölkələrdən gətirilən məhsullar çox olarsa bu, ölkənin ərzaq müstəqilliyinə

mənfi təsir göstərə bilər. Ərzaq və qida məhsullarının istehsalının modernləşdirilməsi rəqabət qabiliyyətli məhsular və onun ixrac bazarı deməkdir. [3, s. 53]. Müəllifin fikirlərindən çıxan nəticə odur ki, qida məhsullarının istehsalını həyata keçirən müəssisələr həm rəqabət qabiliyyətinin yüksəldilməsi, həm də əlavə xərclərin azaldılması baxımından, xüsusilə də nəqliyyat xərclərinə qənaət edilməsi baxımından kənd ərazilərində istehsalçılar ilə yanaşı yerləşdirilir. Bütün bunlar isə kənd ərazilərində fəaliyyət göstərən qida məhsulları istehsalının modernləşdirilməsinin ölkəmizin aqrar sektoru üçün daha səmərəli xarakter daşımasını səciyyələndirə bilər. Belə ki, kənd ərazilərində yerləşən qida məhsullarının istehsalının modernləşdirilməsi əmək məhsuldarlığını yüksəldir və kənd yerlərində istehsal edilən kənd təsərrüfatı məhsulları xammalın satış şəbəkələrini genişləndirir. Bu isə kənd yerlərində istehsal edilən məhsulların əlavə reallaşdırılma mənbəyi kimi çıxış edə bilər.

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək hesab etmək olar ki, qida məhsulları istehsalının modernləşdirilməsi iqtisadiyyatın şaxələndirilməsinə istiqamətlənmiş tədbirlər kompleksinin aparıcı istiqamətlərindən birini təşkil edir və bütün bunlar dövlətin strateji məqsədi olaraq milli maraqların qorunmasının prioritetini təşkil edən iqtisadi təhlükəsizliyin təmin edilməsində əhəmiyyətli mənbə rolunu oynaya bilər.

Nəticə

Qida məhsullarının istehsalının modernləşdirilməsi, qida məhsullarını istehsal edən müəssisələrin yeni texnologiyalar cəlb etməsi hesabına məhsulun keyfiyyətinin yüksəldilməsinə, əmək məhsuldarlığının artırılmasına və məhsulun maya dəyərinin aşağı salınmasına istiqamətlənmiş yenidənqurulma, texnoloji yeniləşmə prosesidir. Adı çəkilən proses iqtisadiyyatın, xüsusilə ixracın şaxələndirilməsində əhəmiyyətli bir rol oynayır. İqtisadiyyatın şaxələndirilməsi isə bir məhsuldan asılılığın, bir mənbədən daxilolmalardan asılılığın aradan qaldırılmasına yönəldilmiş, iqtisadiyyatda yeni keyfiyyət dəyişikliyi deməkdir. Qida məhsulları istehsalının modernləşməsi hesabına iqtisadi fəaliyyətin modernləşdirilməsini təmin etmək, o cümlədən iqtisadi fəaliyyətin şaxələndirilməsini təmin etmək, o cümlədən ixracı şaxələndirmək mümkündür ki, bu da qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə və beynəlxalq bazar konyunkturunda baş verən dəyişikliklərdən dövlət büdcəsinin sığortalanmasına xidmət edir.

ƏDƏBİYYAT

1. Abbasov A. F., İqtisadi inkişafın müasir meyilləri: qlobal çağırışlar, təhdidlər və perspektivlər, Monoqrafiya, Bakı, 2024, səh. 576
2. Ataşov B. X., Aqrar sahədə struktur və səmərəlilik problemləri(Nəzəriyyə və praktika), Bakı, 2017, 536 səh.
3. İbrahimov E. Ə., Qloballaşma dövründə dövlətin iqtisadi təhlükəsizliyi və milli mənafelərin koordinasiyası, İpəkyolu, 2021, N3, s. 48-56
4. İbrahimov İ. H., Aqrar sahənin iqtisadiyyatı, Monoqrafiya, Bakı, 2016,655 səh.
5. Qasımlı V. Ə., İqtisadi modernizasiya, Bakı, 2014, 311 səh.
6. Məmmədov İ.N., Qeyri-neft sektorunun inkişaf istiqamətləri, Bakı, 2012, 524 səh.
7. М. Ковалев, Лю Цзэпин, Китай в xxi веке: обгоняющая модернизация, Монография, Минск, 2011, 176 с
8. Сафрончук М. В., Стратегии выживания: диверсификация производства, дифференциация продукта и их последствия // Проблемы управления, № 5 том 1, май 2017, 73-78с
9. Гребенькова, О. А. Диверсификация в агропромышленных формированиях: автореф. дис.канд. экон. наук : 08.00.05 / М., 2007. — 22 с.
10. Турганова, Л. В. Диверсификация экономики как инструмент устойчивого развития региона (на примере Липецкой области) : автореф. дис. канд. экон. наук : 08.00.05 / М., 2011. - 25 с.

11. Абрамов, Р. А. Диверсификация экономики регионов России на основе развития инновационных процессов : автореф. дис. канд. экон. наук : 08.00.05 / М., 2010. - 21 с

Новруз Амир оглы Рахимов
докторант, Азербайджанского Университета Кооперации
E-mail: novruzrehimov@gmail.com

Модернизация производства продуктов питания и вопросы экономической диверсификации

Резюме

Цель исследования - Цель исследования заключается в определении места и роли модернизации производства пищевых продуктов в диверсификации экономики, а также в выявлении влияния этого процесса на диверсификацию экономики. В статье определены глобальные вызовы, связанные с модернизацией производства пищевых продуктов, а также характерные особенности модернизации пищевой промышленности в процессе диверсификации экономики.

Методология исследования - Использованы методы анализа, синтеза и обобщения.

Практическая значимость исследования - Обосновано влияние модернизации производства пищевых продуктов в Азербайджане на повышение конкурентоспособности продукции, а также определены конкурентные преимущества с точки зрения цены и качества.

Результаты исследования - Обосновано, что модернизация производства пищевых продуктов способствует повышению качества продукции, а увеличение объёмов инвестиций в сектор пищевой промышленности рассматривается как основной фактор. Процесс модернизации производства пищевых продуктов создаст благоприятные условия для снижения зависимости экономики от нефтяного сектора.

Оригинальность и научная новизна исследования - В ходе исследования были изучены возможности влияния инвестиций и продуктовых инноваций на процесс модернизации производства пищевых продуктов, выявлены существующие проблемы в данной сфере, а также определены возможности и перспективы модернизации производства в пищевой промышленности в контексте диверсификации экономики.

Ключевые слова: пищевая промышленность, производство пищевых продуктов, модернизация производства пищевых продуктов, диверсификация экономики, развитие ненефтяного сектора, инвестиции.

Novruz Amir Rakhimov
doctoral student at Azerbaijan Cooperation University,
E-mail: novruzrehimov@gmail.com

Modernization of food production and economic diversification issues

Summary

Purpose of the research - The purpose of the research is to identify the place and role of the modernization of food production in the diversification of the economy, as well as to determine its impact on the diversification process. The article outlines the global challenges related to the modernization of food production and identifies the specific features of this modernization within the economic diversification process.

Research methodology - Methods of analysis, synthesis, and generalization were used.

Practical significance of the research - The study substantiates the impact of the modernization of food production in Azerbaijan on increasing the competitiveness of products, highlighting competitive advantages in terms of price and quality.

Research results - It is substantiated that the modernization of food production contributes to improving product quality, and increasing the volume of investments in the food industry sector is characterized as a key factor. The modernization process in food production will create favorable conditions for reducing dependence on the oil sector in the economy.

Originality and scientific innovation of the research - During the research, the impact of investments and product innovations on the modernization of food production was examined, existing problems in this field were identified, and the opportunities and prospects of modernizing the food industry sector in the context of economic diversification were determined.

Key words: food industry, food production, modernization of food production, economic diversification, development of the non-oil sector, investment.